| | |
|---|---|
| | **AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**<br>**“NAXÇIVAN” UNİVERSİTETİ**<br>**FƏNN SİLLABUSU**<br><br>Təsdiq edirəm: H.Ə. Məmmədov<br>08 sentyabr 2022-ci il |

| | | |
|---|---|---|
| **Fənnin təsviri** | **Fənn (adı, krediti)** | Makroiqtisadiyyat |
| | **Fakültə** | İqtisadiyyat |
| | **Səviyyə(bakalavriat,magistratura)** | Bakalavriat səviyyəsi |
| | **Semestr** | III |
| | **Fənn müəllimi** | Zamanov Əbdülhüseyn Şahhüseyn oğlu |
| | **e-mail** | 0513100078ebdul@gmail.com |
| | **Telefon** | (050) 641-38-94 |
| | **Dərs günləri vəsaatları** | II günI s IIIg (üst həftə)III saat,V gün III saat |
| **Tədris dili** | Azərbaycan dili | |
| **Baza/ Seçmə** | Seçmə fənn | |
| **Tələb olunan dərsliklər və dərs materialları** | 1. Olivier Blanşard-Makroiqtisadiyyat Nəşr-7,PEARSON Qlobal Nəşr-7 2018 2<br>2. Frederik.S.Mişkin-Pul,bank və maliyyə bazarlarının iqtisadiyyatı- TEAS Pres Nəşriyyat Evi2021<br>3. 3.X.Hüseynov,E.Balayeva-Pul,Kredit,Banklar.Bakı 2015<br>4. H .Əhmədov. Makroiqtisadiyyat. Bakı 2016<br>5. M.C.Atakişiyev, H.M.Abbasov -Mikro-makroiqtisadiyyat.Dərslik. Bakı-2010<br>6. T.S.Vəliyev, Ə.P.Babayev, H.M.Meybullayev-İqtisadi nəzəriyyə-Bakı-2001<br>7. H.M.Meybullayev -Mikroiqtisadiyyata giriş- Bakl-2010<br>8. İqtisadi nəzəriyyə Makroiqtisadiyyat -1,2 Transformasiyaiqtisadiyyatı. Dərslik Daşkov və K‖ nəşriyyatı Moskva 2008<br>9. O.Məmmədli, M.İsmayılov, R.İsmayılov - İqtisadi nəzəriyyə -Dərs vəsaiti. Bakı- 2010<br>10. S.İbadov İqtisadiyyat- Mikro və makroiqtisadiyyat. Dərs vəsaiti.Bakı-2010<br>11. O.Məmmədov,Y.F.Əlifov –İqtisadi nəzəriyyənin əsasları- Dərs vəsaiti Gəncə- 2003<br>12. E.Kərimov, B.Osmanov –İqtisadi nəzəriyyə Mikro-Makroiqtisadiyyat Bakı-2010.<br>13. J.Harvey, R.Joyusev –Müasir ekonomiks 8-ci nəşr Bakı-2008.<br>14. Müəssisələr haqqında‖ AR-nın qanunu.1 iyul 1994-cü il.<br>15. İqtisadi nəzəriyyə. Dərslik Çağoğlu nəşriyyatı Bakı 2001.<br>16. O. Məmmədov. İqtisadi nəzəriyyə.Dərs vəsaiti. Gəncə 2004.<br>17. П. Самуелсон. Экономика. Москва 2014.<br>18. К. Макконнелл, С. Брю, Экономикс Азярняшр 2014.<br>19. N.Qreqori Mənykyu. Ekonomiksin əsasları, III nəşr, 2007 | |
| **İstifadə ediləcək web səhifələr** | Milli internet resursları: www.socar.az (ARDNŞ); www.nba.az (AMB); www.maliyye.gov.az (AR MN); www.economy.gov.az (AR İSN); www.azstat.org (AR DSK); www.customs.gov.az (AR DGK) | |
| **Dərsin öyrənilmə səviyyəsi** | Müəllim əvvəlcədən tələbələrə elektron poçtla məlumat verəcək və ya iş vaxtının yenidən təyin edilməsi zərurəti yarandıqda bu barədə məlumat verəcəkdir. Bu sillabus kursa aid olan bütün praktiki aspektləri, tələbləri və müddətləri əhatə edən əsas sənəddir. Sənəd tələbələr tərəfindən alındıqdan dərhal sonra hərtərəfli oxumalı və semestr ərzində bu sənədin tələblərinə əməl edilməlidir. Tələbələr WhatsApp qrupu və ya tələbələrin e-poçt qrupu vasitəsilə müəllimlə əlaqə qura bilərlər. Bu e-poçt ünvanı, elektron məlumatların ötürülməsi üçün tələb olunur, burada tələbələr müəllim tərəfindən təqdim oluna fənlə əlaqəli informasiyalarla tanış ola bilərlər. | |

| | |
|---|---|
| **Fənnin xülasəsi** | Bu fənni öyrənməklə biz makroiqtisadiyyatın tədqiqat predmetini və makroiqtisadi proseslərin öyrənilməsinin özəlliklərini müəyyənləşdirəcəyik. Makroiqtisadiyyat — iqtisadi nəzəriyyənin iqtisadiyyatın bütövlükdə fəaliyyət mexanizmini öyrənən hissəsidir. O bir çox mühüm problemləri məşğulluq, milli gəlirin səviyyəsi, inflyasiya, valyuta kursu, tədiyyə balansı - qarşılıqlı əlaqədə nəzərdən keçirir. Bir müstəqil fənn kimi makroiqtisadiyyatın meydana gəlməsi Con Meynard Keynsin adı ilə bağlıdır. Makroiqtisadiyyatın iqtisadi nəzəriyyənin müstəqil hissəsi kimi formalaşmasına XX əsrin 20-30-cu illərindəki iqtisadi dəyişikliklərin, o cümlədən Böyük depressiyanın güclü təsiri olmuşdur. İstehsalda azalma, işsizlik, bazarın itisadiyyatdakı ümumi tarazlığı bərpa etmək iqtidarında olmaması - bütün bunlar makroiqtisadi nəzəriyyələrin formalaşması üçün başlanğıc oldu.<br>Makroiqtisadiyyat iqtisadiyyatda yaranan problemlərin həllindən «toxunmuşdur». M.Keynsin «Məşğulluq, faiz və pulun ümumi nəzəriyyəsi» kitabında onlardan XX əsrin 40-70-ci illərində tədqiqatların əsasnı təşkil edən əsərlərdən müəyyənləşdirmişdir. Makroiqtisadi roblemlərin öyrənilmə mexanizmi aşağıdakı problemlərin nəzəri həllindən ibarətdir: Məşğulluq səviyyəsini müəyyənləşdirən amillərin aşkar edilməsi. İşsizliklə mübarizə metodlarmın müəyyənləşdirilməsi, Pulun rolunun və pula tələbi müəyyənləşdirən amillərin öyrənilməsi. Nemətlər və pul bazarları arasında qarşılıqlı əlaqəni təmin edən əsas vasitəçi kimi faiz dərəcəsinin rolunun təhlil dilməsi. Müasir iqtisadi nəzəriyyə iqtisadi dinamika, inflyasiya, dövlət borcu, dövlətin, digər institutların iqtisadi siyasəti, beynəlxalq iqtisadiyyatın problemlərini tədqiq etməklə bu siahını genişləndirdi<br>Fənn tələbələrə aşağıdakıları təmin edəcəkdir:<br>- bazar iqtisadiyyatının həm mikro, həm də makro səviyyədə fəaliyyətinin prinsipləri və qanunları haqqında ümumi təsəvvür yaratmaq;<br>- iqtisadi təhlilin spesifikası ilə tanış etmək;<br>- əsas iqtisadi kateqoriyaların, əmtəə, pul, bazar, tələb, təklif, tarazlıq, səmərəlilik, rəqabət, inhisar, inflyasiya, işsizlik və s. kimi anlayışların məzmununu açmaq, ən mühüm əmsalların, indeks və göstəricilərin hesablanma vərdişlərini aşılamaq;<br>- müxtəlif bazar strukturlarında və müxtəlif bazarlarda qiymətin əmələ gəlməsi spesifikası ilə tanış etmək;<br>- əlavə informasiya mənbələri ilə işləməyi öyrətmək. |
| **Fənnin məqsədləri** | Fənnin tədrisinin məqsədi- Makroiqtisadi səvyyədə ölkə iqtisadiyyatının davranışının bütöv vahid kimi iqtisadi artım resursların tam dayanıqlı məşğulluğu infilyasiya səviyyəsinin minimallaşdırılması baxımından öyrənir.Makroiqtisadiyyat bötövlükdə iqtisadiyyatda əmtəə və xidmətlərin buraxılışının ümumi həcmi və qiymətlərinin orta səviyyəsinin dəyişməsinin öyrənilməsinə fikir verir. İqtisadi artım əhali artımı və texnoloji tərəqqi kimi kimi nisbətən dayanıqlı amillərin fəaliyyətinin nəticəsidir. Bu amillərin dinamikası uzun müddətli perspektivdə potensial istehsal həcminin dinamikasını müəyyən edir. Qısa müddətli dövrdə iqtisadiyyat ahəngdar irəliləmələrin başlıca trayektoriyasından kənarlaşır.Ona görə də dayanıqlı iqtisadi artım həmin dövrü dəyişmələrin idarə edilməsinin öyrənilməsini tələb edir.<br>Fənnin tədrisinin əsas qayəsi –milli iqtisadiyyatın inkişafı problemlərinin kompleks şəkildə öyrənilməsi təşkil edir.<br>Fənnin tədrisi məqsədi müasir şəraitdə yeni universal biznesmen tipinin - təşəbbüskar, müstəqil, geniş profilli, yeni iqtisadi şəraitdə öz fəaliyyətini uğurla həyata keçirə bilmək bacarığına malik mütəxəssislərin hazırlanmasından ibarətdir.<br>Fənn tədrisinin sonunda tələbələr aşağıdakıları mənimsəməlidir:<br>1. İqtisadiyyata baxışların təkamülü. Buna görə də fənnin hər bir mövzusu, bir qayda olaraq, həmin problem üzrə iqtisadi fikrin işıqlandırılmasından başlayır;<br>2. İqtisadi nəzəriyyənin əsas metodoloji müddəalarını dərk etmədən müasir aləmi başa düşmək mümkün deyil;<br>3. Yaranışdan obyektiv olaraq insana verilmiş fiziki aləmdən (təbiətdən) fərqli olaraq insanla bağlı iqtisadi sistemlərin təhlilinə. İnsan bu sistemin mərkəzi, nüvəsi olur. İqtisadiyyat insansız, onun tələbatları və maraqları nəzərə alınmadan mövcud ola bilməz. Lakin ayrı-ayrı iqtisadi sistemlərdə insan davranışının öz spesifikası var;<br>4. Beynəlxalq tələblərə müvafiq olaraq makroiqtisadiyyat kursuna mütləq bütün |

<table>
<tr><td></td><td colspan="2">bölmələrin («modulların») salınmasına;<br>5. Yaranmış iqtisadi vəziyyəti düzgün qiymətləndirmək məqsədilə dünya təcrübəsindən, ələlxüsus, həmin problemin müxtəlif ölkələrdə vəziyyətinə.</td></tr>
<tr><td>Öyrənim nəticələri</td><td colspan="2">Tələbələr bacaracaqlar:<br>1. yeni ideyalar yaratmağı və təşəbbüskar olmağı;<br>2. problemli məsələlərə qeyri-standart həll yolları tapmağı;<br>3. mövcud makroiqtisadi mühiti təhlil etməyi;<br>4. müqavilə və sazişlərin bağlanması idxal -ixrac siyasətinin həyata keçirilməsini;<br>5. maksimum gəlir əldə etməyə imkan verən mallar üzrə qiymətin müəyyənləşdirilməsini və.s<br>Öyrənmənin nəticələri:<br>Bu fənni uğurla tamamlayan tələbələr sonda aşağıdakı bacarıqlara yiyələnəcəklər:<br>- Makroiqtisadi tarazlıqları təhlil etmək.<br>- Təməl makroiqtisadi anlayışları şərh edə bilmək;<br>- Milli gəlir və yaşayış minimumunun hesablamaq;<br>- Ölkənin iqtisadi inkişaf imkanlarını təhlil etmək;<br>- Maliyyə sistemi və maliyyə siyasətini təhlil etmək;<br>- Məşğulluq və işsizlik problemlərini təhlil etmək;<br>- Monetar sistemi və monetar siyasəti təhlil etmək;<br>- Açıq iqtsiadiyyatın makroiqtisadi təhlilini aparmaq;</td></tr>
<tr><td rowspan="6">Tədris metodları</td><td>Mühazirə</td><td>Fənnə aid ümumi xarakterli məlumatlar verilir Mühazirə müddəti 80 dəqiqə olaraq planlaşdırılır. Mühazirə zamanı mövzu ilə bağlı qeydlər etmək tələbələrin məsuliyyətidir. Mühazirənin elektron versiyası müəllim və ya universitetin veb saytından əldə edilə bilər. Mühazirə zamanı slayd materiallardan tez-tez istifadə ediləcəkdir. Eyni zamanda, çətin mövzu Microsoft Teams vasitəsilə hərtərəfli müzakirə ediləcək, aydınlaşdırılacaq və izah ediləcək. Mühazirə zamanı tələbələr mühazirəçidən qeyri-müəyyən olan materialı təkrarlamasını və ( və ya) aydınlaşdırmasını tələb edə bilərlər. Hər bir mövzu üzrə ədəbiyyatın müvafiq siyahısı tədris proqramının son hissəsində verilmişdir. Bundan əlavə, tələbələrin internet resurslarından istifadə etmələri məsləhətdir.</td></tr>
<tr><td>Qrup müzakirəsi</td><td>Tələbələrə fərdi mövzuda təqdimatlar verilir və müzakirə aparılır</td></tr>
<tr><td>Təcrübi məşğələ</td><td>Yeni mövzu əyani vəsaitlərin (PPT və video fayllar) nümayişi ilə izah edilir.</td></tr>
<tr><td>Simulyasiya</td><td>Aralıq və yekun imtahan zamanı tələbələrin mənimsənilmə səviyyəsi yoxlanılır və təhlil edilir</td></tr>
<tr><td>Layihə</td><td>Tələbələrə dərsə aid fərdi laborator işləri verilir və simulyasiya proqramlarından istifadə edilərək nəticələr qeyd edilir</td></tr>
<tr><td>Digər</td><td>Tədris prosesində fərdiləşdirilmiş ( oyunlar üçün materiallar, testlər) və vizual (slaydlar, sxemlər, qrafiklər, şəkillər, sənəd nümunələri) materiallar kimi təlim metodlarından istifadə edilir</td></tr>
<tr><td rowspan="5">Qiymətləndirmə</td><td>Mövzunun mənimsənilməsi</td><td>Faiz nisbəti (%) və ya bal</td></tr>
<tr><td>Balların maksimum miqdarı</td><td>100 bal</td></tr>
<tr><td>1. Semestr ərzində toplanmış maksimum bal</td><td>50 bal (50%)</td></tr>
<tr><td>- Dərsə davamiyyətə görə maksimum bal</td><td>10 bal (10%)</td></tr>
<tr><td>- Tələbələrin sərbəst işinə görə maksimum bal Fərdi tapşırıqlar müəllim tərəfindən təyin olunmuş vaxtda təqdim edilməlidir. Fərdi tapşırıqlar iki səhifədən az olmamalıdır. Fərdi tapşırıqlar tələbənin fəsli tam başa düşdüyü zaman qəbul edilir. Bundan əlavə olaraq, ədəbiyyat icmalı, qrup və ya fərdi şəkildə təqdimatlar, sorğu və müəllimin</td><td>10 bal (10%)</td></tr>
</table>

| | | |
|---|---|---|
| | müəyyənləşdirdiyi digər formada aparıla bilər. | |
| | - Seminar və laboratoriya dərslərinin nəticələrinə görə maksimum bal .Hər seminar üçün iki saat vaxt verilir. Seminarın əvvəlində tələbələrin nəzəri bilikləri təsdiqlənəcəkdir. Hər bir tələbə verilən suallara cavab verməli və mövzunu və onun əsas məntiqini başa düşdüyünü nümayiş etdirməlidir. Cavablar əzbərlənərsə və səthi olarsa, tələbənin fənni mənimsəmədiyi hesab olunur | 30 bal (30%) |
| | **Qeyd: seminar dərslərində tələbənin jurnalda ən azı 3 (üç qiymәti olduğu halda, ona tədrisin bu növü üzrə ballar hesablanır. Əks təqdirdə tələbəyə bal hesablanmır.** | |
| | 2. İmtahan nəticələrinə görə maksimum bal | 50 bal (50%) |
| | 3. Fənnin mənimsənilməsi qaydası: semestr ərzində imtahan nəticəsinə görə toplanan balların cəmi 50-dən yuxarı olan tələbələr fənni mənimsəmiş hesab edilir.<br>- 51 baldan aşağı – "qeyri kafi" – F<br>- 51 – 60 - "qənaətbəxş" – E<br>- 61 – 70 – "kafi" – D<br>- 71 – 80 – "yaxşı" – C<br>- 81 – 90 – "çox yaxşı" – B<br>- 91 – 100 – "əla" | |
| | **Cəmi:** | **100 bal (100%)** |
| **Qiymətləndirmə metodları** | **Tapşırıqlar:** Tapşırıq olaraq tələbələrə aşağıda qeyd olunmuş sərbəst mövzular verilir və semestr ərzində qiymətləndirilir.<br>**Sərbəst iş mövzuları:**<br>1. Əmtəə birjası, onun növləri və fəaliyyəti.<br>2. Təklif və istehsal, onların vəhdəti.<br>3. Bazar iqtisadiyyatının əsasları.<br>4. Büdcə kəsiri və onun aradan qaldırılması.<br>5. Müəssisə, onun sosial-iqtisadi formaları.<br>6. Vergi sisteminin mahiyyəti və prinsipləri.<br>7. Müəssisənin istehsal fondlarının fiziki və mənəvi aşınması.<br>8. Kapital haqqında anlayış, pulun kapitala çevrilməsi.<br>9. Müasir dövrdə xüsusi mülkiyyət haqqında anlayış.<br>10. Bazar iqtisadiyyatının əsası- tələb və təklif nəzəriyyəsi.<br>11. Dövlət büdcəsinin quruluşu.<br>12. Milli gəlirin yaranması, bölgüsü və yenidən bölgüsü.<br>13. Əhalinin gəlirlərinin nominallığı və reallığı.<br>14. Bazar iqtisadiyyatında tələb və təklifin tarazlığı.<br>15. İstehlak zənbili və onun mahiyyəti.<br>16. Bazar iqtisadiyyatı şəraitində yeni strukturların yaranması.4<br>17. Ümumi daxili məhsulun qiymətləndirilməsi.<br>18. Bank kapitalı və onun mənfəəti-faiz.<br>19. Bazar mexanizmi – tələb və təklif.<br>20. Azərbaycan Respublikasının beynəlxalq iqtisadi əlaqələrdə yeri.<br>21. Pulun monometalizm və bimetalizm sistemi.<br>22. İctimai əmək bölgüsü və beynəlxalq əmək bölgüsü haqqında anlayış.<br>23. Pul sistemində pulun kütləsi, ona təsir edən amillər.<br>24. İstehsal münasibətləri ilə məhsuldar qüvvələri haqqında anlayış.<br>25. Azərbaycan Respublikasının xarici neft şirkətləri ilə bağlanan müqavilələri, onların mahiyyəti.<br>26. Bazar iqtisadiyyatını idarə edən iqtisadi qanunlar.<br>27. Müasir dövrdə əmtəənin qiymətinin funksiyaları.<br>28. Iqtisadi böhranlar haqqında anlayış, iqtisadi tsiklin fazaları.<br>29. Bazar mexanizminin komponentləri.<br>30. Dövlət büdcəsi, onun gəlir və xərc hissəsinin quruluşu.<br>31. Müəssisənin mənfəətinin bölüşdürülməsi.<br>32. Azərbaycan Respublikasında özəlləşdirmə, onun mahiyyəti və mərhələləri. | |

<table>
<tr><td></td><td colspan="3">33. Maliyyənin anlayışı və dövlətin maliyyə siyasəti.<br>34. Bazar iqtisadiyyatı şəraitində milli gəlirin artırılmasının mənbələri.<br>35. İşsizlik və onun növləri.<br>36. İnhisar rəqabəti şəraitində qiymətlərin əmələ gəlməsi.<br>37. Vergilərin müəssiənin iqtisadi vəziyyətinə təsirinin qiymətləndirilməsi.<br>38. Bazar iqtisadiyyatında tələb və təklifin tarazlığı .5<br>39. İqtisadi böhranlar haqqında anlayış, iqtisadi tsiklin fazaları.<br><br>Təqdimat:Slayd formasında hazırlanaraq sunulan təqdimatlar “GÖRÜRƏM, EŞİDİRƏM VƏ YADDA SAXLAYIRAM” prinsipinə əsasən qiymətləndirilir.</td></tr>
<tr><td>Qaydalar</td><td colspan="3">Davamiyyət: Fənn üzrə ayrılmış bütün saatların 25%-dən çoxunda iştirak etməyən tələbə imtahana buraxılmır.<br>Buraxılmış imtahan və ya tapşırıqlar: Tələbə planlaşdırılan təqdimatda və ya imtahanda iştirak edə bilməyəcəyi təqdirdə əvvəlcədən məlumat verməlidir. Tam sinif iştirakı və təyin olunmuş ev tapşırığını yerinə yetirilməsi gərəklidir.<br>Tədqiqat işlərində, hazırlanmış layihələrdə istifadə olunan mənbələrə istinad verilməlidir. Bununla birlikdə, tələbə tərəfindən təhlil edilmədən, yalnız istinad və sitatlardan ibarət olan hər hansı bir tədqiqat işi qəbul edilə bilməz.<br>Testlər zamanı köçürmə, təyin edilmiş qaydalara tabe olunmadığı təqdirdə tələbə imtahan nəticəsinin ləğv olunmağı ehtimalı daxil olmaqla cəzalandırılacaqdır.<br>Təqdimatların / layihə sənədlərinin mövzuları fənni tədris edən müəllim tərəfindən əvvəlcədən müəyyənləşdiriləcəkdir. Müəllim ilə əvvəlcədən razılaşdırıldığı təqdirdə digər tələbələrlə əməkdaşlığa icazə verilə bilər.</td></tr>
<tr><td colspan="4">İlkin cədvəl</td></tr>
<tr><td colspan="4">MÜHAZİRƏ - 30 SAAT</td></tr>
<tr><td>Həftə</td><td>Tarix</td><td>Mövzular</td><td>Dərslik / Tapşırıq / Ədəbiyyat</td></tr>
<tr><td>I</td><td>16.09.22</td><td>Mövzu 1. Ümumi tələb və təklif. Makroiqtisadi tarazlıq2(saat)<br>Tələbin mahiyyəti. Tələbat və tədiyə qabiliyyətli tələb. Tələbin funksiyası. Tələb qanunu. Fərdi və bazar tələbi. Tələbin qrafik təsviri. Tələbin – hərəkətverici amilləri. Tələbdə dəyişiklik və onun kəmiyyətinə təsir göstərən amillər. Təklifin mahiyyəti. Təklifin funksiyası. Təklif qanunu. Fərdi və bazar təklifi. Təklifin qrafik təsviri. Təklifin hərəkətverici amilləri. Təklifdə dəyişiklik və onun kəmiyyətinə təsir göstərən amillər. Qiymətin iqtisadi məzmunu və əmələ gəlməsinin əsas qanunauyğunluqları. Qiymətin əmələ gəlməsinin xərc amilləri. İctimai-zəruri əmək məsrəfləri. Istehsal xərcləri, dəyər və qiymət. Qiymətin əmələ gəlməsində tələb və təklif amilləri. Qiymətin tələb və təklifdən asılılığı. Qiymətlərin bazar özünü tənzimlənməsində rolu. Müvazinət qiyməti və bazar müvazinəti. Qiymətin funksiyaları. Qiymərlərin dövlət tənzimlənməsi. Dövlət tənzimlənməsinin birbaşa və dolayı metodları. Rəqabətin mahiyyəti. Bazar iqtisadiyyatı şəraitində mülkiyyət formalarının müxtəlifliyi və təsərrüfat fəaliyyətinin azadlığı.<br>.</td><td>Ədəbiyyat<br>H .Əhmədov. Makroiqtisadiyyat. Bakı 2016 2.S.İbadov. İqtisadiyyat. Dərslik. BDU. Bakı, 2008. 3.Z.Hüseynova. İqtisadi nəzəriyyə. Dərs vəsaiti. Bakı, 2007-ci il.səh.85-104 4.. İqtisadi nəzəriyyə. Dərslik. E.Kərimov, B.Osmanov. Bakı, 2010.səh.146-178<br>Tapşırıq .<br>Bazar iqtisadiyyatının fəaliyyət mexanizmi: tələb, təklif və qiymət. Tələb və təklifin yeni istehsal sahələrinin yaranmasına təsiri,geriləmə depresiya<br>Dövlətin qiymətqoyma siyasəti</td></tr>
</table>

| | | | |
|---|---|---|---|
| **II** | 23.09.22 | **MÖVZU 2. Təkrar istehsal.(2 saat)**<br>Təkrar istehsalın mahiyyəti. Fərdi və ictimai təkrar istehsal. Təkrar istehsalın fazaları. Təkrar istehsalın növləri. Geniş təkrar istehsalın tipləri. Maddi istehsal və qeyri-istehsal sahələri. Qeyri-istehsal sahəsinin ictimai əmək bölgüsündə yeri və rolu. Postindustrial cəmiyyətin formalaşması və qeyri-istehsal sahəsi. İctimai təkrar istehsal və qeyri-istehsal sahəsi. Xidmətlərini mahiyyəti və onların təsnifatı. Xidmətlər sosial-iqtisadi kateqoriya kimi. Maddi və qeyri-maddi xidmətlər, onların istehsalı və istehlakı. Qeyri-istehsal sahəsində iqtisadi münasibətlərin xarakteri və inkişaf meylləri. İstehsal xərclərinin mahiyyəti.. Məhsulun həcminin artırılması ilə istehsal xərclərinin səviyyəsinin əlaqəsi Kenenin təkrar istehsal cədvəli K.Marksın təkrar istehsal haqında fikirləri | **Ədəbiyyat**<br>1. İqtisadi nəzəriyyə. Bakı 1993-cü il.səh.65-84 2. İqtisaiyyat (iqtisadi nəzəriyyənin əsasları) 1998-ci il. səh.72-94 3.. Dərslik, 2002-ci il. səh.72-95 5. Azərbaycan iqtisadiyyatı. Dərslik (red. İ.H.Alıyev). Bakı, 1998-ci il, səh.79-106 6. S.İbadov. İqtisadiyyat. Dərslik. BDU. Bakı, 2008. səh.128-136 К.П.Макконнел, С.Л.БРЮ. Экономикс. Москва, 2009. səh.65-78 9. İqtisadi nəzəriyyə. Dərslik. E.Kərimov, B.Osmanov. Bakı, 2010. səh.86-112<br>**Tapşırıq**<br>- **Geniş təkrar istehsalın tipləri.**<br>- **İstehsal xərclərinin təsnifatı. Qeyri-istehsal sahəsinin xərclərinin maliyyələ-ilməsi.** |
| **III** | 30.09.22 | **Mövzu 3. İqtisadi artım və səmərəlilik2(saat)**<br>Geniş təkrar istehsalın öz əksini tapdığı iqtisadi artım problemi diskussiya və müzakirələr, Iqtisadi artım bilavasitə öz ifadəsini ÜMM-in kəmiyyətcə artması və keyfiyyətcə təkmilləşdirilməsində, habelə onun istehsalına təsir göstərən amilləri<br>İqtisadi artımın ekstensiv və intensiv tipləri bir-birindən fərqləndiilməsi.<br>Iqtisadi artımın tədqiqi onun bir sıra modellərinin işlənib hazırlanmasına gətirib çıxarmışdır. Iqtisadi artımın əsl mahiyyətini əks etdirən "Xərc – məhsul bu-raxılışı" modeli<br>Neoklasik model ,xarrod modeli<br>Müasir dövrdə iqtisadi artımın modelləşdirilməsində üç istiqamət | **Ədəbiyyat**<br>H .Əhmədov. Makroiqtisadiyyat. Bakı 2016 **2.**S.İbadov. İqtisadiyyat. Dərslik. BDU. Bakı, 2008. 3.Z.Hüseynova. İqtisadi nəzəriyyə. Dərs vəsaiti. Bakı, 2007-ci il.səh.85-104 4.. İqtisadi nəzəriyyə. Dərslik. E.Kərimov, B.Osmanov. Bakı, 2010.səh.146-178<br>**Tapşırıq**<br>**Modellərin təhlili məhsuldarlıq fiziki kapital,insan kapitalı təbii ehtiyatlar,texnoloji biliklər azalan fayda,inkişafın səmərəlilik effekti** |
| **IV** | 07.10.22 | **Mövzu 4. Ümumi milli məhsul və milli gəlir.(2 saat)**<br>Makroiqtisadi göstəricilər. Ümummilli məhsul. Ümummilli məhsulun dəyər və maddiəşya tərkibi. Ümummilli məhsulun funksional formaları: Ümumdaxili məhsul, xalis məhsul, son məhsul, aralıq məhsul, milli gəlir. Ümummilli və ümumdaxili milli məhsulun sahələrə, xərclərə və gəlirlərə görə hesablanmasının metodları. Xərclər və nəticənin təhlili. Reallaşdırma nəzəriyyəsi. Cəmiyyətin milli sərvəti, onun quruluşu və artırılması yolları. Milli gəlir iqtisadi potensialın göstəricisi kimi. Milli gəlirin artım mənbələri. Milli gəlirin bölgüsü, yenidən bölgüsü və istifadə olunması. İstehlak və yığım fondlarının nisbəti və onların optimallaşdırılması. Milli gəlir əhalinin rifah halının təmin edilməsinin maddi əsasıdır. Adambaşına düşən milli gəlirin hesablan-masındakı müxətliflik və onların metodoloji əsasları. | **Ədəbiyyat**<br>1. İqtisadi nəzəriyyə. Dərslik. E.Kərimov, B.Osmanov. Bakı, 2010.səh.153-176 H .Əhmədov. Makroiqtisadiyyat. Bakı 2016 2.M.C.Atakişiyev, H.M.Abbasov - Mikro-makroiqtisadiyyat.Dərslik. Bakı-2010 3. H.M.Meybullayev-İqtisadi nəzəriyyə-Bakı-2001 3.Makroiqtisadiyyat -1,2 Transformasiyaiqtisadiyyatı. Dərslik Daşkov və K‖ nəşriyyatı Moskva 2008 4.O.Məmmədli, M.İsmayılov, R.İsmayılov - İqtisadi nəzəriyyə - Dərs vəsaiti. Bakı- 2010 5.S.İbadov İqtisadiyyat- Mikro və makroiqtisadiyyat. Dərs vəsaiti.Bakı-20106.O.Məmmədov,Y.F.Əlifov – İqtisadi nəzəriyyənin əsasları- Dərs vəsaiti Gəncə- 2003 7.E.Kərimov, B.Osmanov –İqtisadi nəzəriyyə |

| | | | |
|---|---|---|---|
| | | | Mikro-Makroiqtisadiyyat Bakı-2010.<br>**Tapşırıq Makroiqtisadi göstəricilər sistemi.**<br>**Ümummilli məhsulun hesablanması üsulları.**<br>**Cəmiyyətin milli sərvəti: məzmunu və strukturu.** |
| **V** | 14.10.22 | **Mövzu 5. Gəlirlərin formalaşması və bölgüsü(2 saat).**<br>Hər bir cəmiyyətdə və hər bir ölkədə istehsal olunmuş ümumi milli məhsul bölünür. Onun hər bir hissəsi ictimai tələbatların, digər hissəsi isə cəmiyyət üzvlərinin şəxsi istehlaklarının ödənilməsi üçün istifadə olunur.<br>Bölgü münasibətlərini geniş və dar mənada fərqləndirmək olar. Geniş mənada bölgü dedikdə, istehsal subyektləri arasında istehsal şərtlərinin və amillərinin bölgüsü nəzərdə tutulur. Dar mənada bölgü dedikdə, sadəcə olaraq, istehsalın nəticəsi olan məhsulların bölgüsü başa düşülür.<br>Gəlirlərin funksional bölgüsü, ilkin gəlirlər -əmək haqqı, faiz, renta və mənfəətin formalaşması. İkinci fərdi(şəxsi) bölgü , bu zaman ayrı ayrı şəxslər, ailələr, ev təsərrüfatları arasında gəlirlərin səviyyəsinə uyğun bölgü . Qərb iqtisadi nəzəriyyəsində gəlirlərin ədalətli bölgüsündə dörd nöqteyi nəzər mövcuddur**: eqalitar, roulsian, utilitar, bazar**.<br>Əhali gəlirləri, onların növləri və yaranma mənbələri. Gəlirlərin bərabərsizliyi. M. Lorens əyrisi və K. Cini əmsalı.<br>Əmək haqqının mahiyyəti, formaları və sistemləri. Nominal və real əmək haqqı, onlara təsir edən amillər**.** | **Ədəbiyyat**<br>1. İqtisadi nəzəriyyə. Dərslik. E.Kərimov, B.Osmanov. Bakı, 2010.səh.153-176 H .Əhmədov. Makroiqtisadiyyat. Bakı 2016 2.M.C.Atakişiyev, H.M.Abbasov - Mikro-makroiqtisadiyyat.Dərslik. Bakı-2010 3. H.M.Meybullayev- İqtisadi nəzəriyyə-Bakı-2001 3.Makroiqtisadiyyat -1,2 Transformasiyaiqtisadiyyatı. Dərslik Daşkov və K‖ nəşriyyatı Moskva 2008 4.O.Məmmədli, M.İsmayılov, R.İsmayılov - İqtisadi nəzəriyyə - Dərs vəsaiti. Bakı- 2010 5.S.İbadov İqtisadiyyat- Mikro və makroiqtisadiyyat. Dərs vəsaiti.Bakı-20106.O.Məmmədov,Y.F.Əlifov – İqtisadi nəzəriyyənin əsasları- Dərs vəsaiti Gəncə- 2003 7.E.Kərimov, B.Osmanov –İqtisadi nəzəriyyə Mikro-Makroiqtisadiyyat Bakı-2010.<br>**Tapşırıq**<br>**Dövlətin sosial siyasəti, Həyat tərzi və yoxsulluğun təhlili** |
| **VI** | 21.10.22 | **Mövzu 6. Büdcə və vergilər ( 2 saat).**<br>Maliyyənin zəruriliyi, mahiyyəti və vəzifələri. Maliyyə sistemi və onun ünsürləri. Maliyyənin maddi əsası. Dövlət büdcəsi. Büdcənin gəlir və xərclərinin quruluşu. Büdcə sistemi. Büdcə gəlirlərinin mənbələri. Büdcə gəlir və xərclərinin mütənasibliyi. Büdcə kəsiri, onun sosial-iqtisadi nəticələri və aradan qaldırılması yolları. Azərbaycan dövlətinin maliyyə siyasəti sahəsində son tədbirləri, qəbul etdiyi qanun və qərarlar. Ümumdünya maliyyə böhranı: yaranma səbəbləri. Böhranın dünya iqtisadiyyatına və həmçinin Azərbaycan iqtisadiyyatına təsiri. Azərbaycan hökumətinin böhranın təsirini zəiflətmək üçün yürütdüyü qabaqlayıcı, profilaktik iqtisadi siyasət. Verginin zəruriliyi, mahiyyəti və vəzifələri. Vergi sistemi. Vergilərin növləri. İstehsalın və bazarın tənzimlənməsində vergilərin əhəmiyyəti. Maliyyə-vergi sistemi və iqtisadiyyatın sabitləşdirilməsi problemləri. Dövlətin vergi siyasəti və onun əsas istiqamətləri. Dövlət xərclərinin və vergilərin tənzimlənməsində fiskal siyasətin rolu. Fiskal siyasətin inflyasiyaya təsiri. Laffer əyrisi. | **Ədəbiyyat**<br>1. İqtisadi nəzəriyyə. Dərslik. E.Kərimov, B.Osmanov. Bakı, 2010.səh.153-176 H .Əhmədov. Makroiqtisadiyyat. Bakı 2016 2.M.C.Atakişiyev, H.M.Abbasov - Mikro-makroiqtisadiyyat.Dərslik. Bakı-2010 3. H.M.Meybullayev- İqtisadi nəzəriyyə-Bakı-2001 3.Makroiqtisadiyyat -1,2 Transformasiyaiqtisadiyyatı. Dərslik Daşkov və K‖ nəşriyyatı Moskva 2008 4.O.Məmmədli, M.İsmayılov, R.İsmayılov - İqtisadi nəzəriyyə - Dərs vəsaiti. Bakı- 2010 5.S.İbadov İqtisadiyyat- Mikro və makroiqtisadiyyat. Dərs vəsaiti.Bakı-20106.O.Məmmədov,Y.F.Əlifov – İqtisadi nəzəriyyənin əsasları- Dərs vəsaiti Gəncə- 2003 7.E.Kərimov, B.Osmanov –İqtisadi nəzəriyyə Mikro-Makroiqtisadiyyat Bakı-2010<br>**Tapşırıq**<br>**Dövlət büdcəsi, onun strukturu, büdcə kəsiri və onun aradan qaldırılması yolları.**<br>- **Dövlətin vergi sistemi, onun** |

| | | | |
|---|---|---|---|
| **VII** | 28.10.22 | **Mövzu 7. Kredit sistemi və banklar( 2 saat).**<br>Pul tədavülünün mahiyyəti, məzmunu və quruluşu. Nağdsız pul dövriyyəsi, onun təşkili, prinsipləri və formaları. Nağd pul dövriyyəsinin iqtisadi məzmunu və onun təşkili. Pul tədavülü qanunları. Tədavül üçün lazım olan pulun miqdarının müəyyən edilməsi. Pul sistemləri, onun formaları və inkişafı. Azərbaycanda bazar iqtisadiyyatına keçid şəraitində pul sistemi, pul tədavülünün tənzimlənməsi və sabitləşməsi problemləri. Kreditin zəruriliyi, mahiyyəti və formaları. Kreditin prinsipləri. Kredit sistemi. Kredit-maliyyə institutları: mərkəzi bank kommersiya bankları. İxtisaslaşmış maliyyə-kredit təşkilatları. Mərkəzi bankın funksiyaları. Bank əməliyyatları: passiv, depozit, aktiv və fond əməliyyatları, bank xidmətləri. Bank kreditinin xüsusiyyətləri. Bank əməliyyatlarının qarşılıqlı əlaqələri. Azərbaycanda bank sisteminin xüsusiyyətləri. Kredit siyasəti. Kredit siyasətinin məqsədi və alətləri. Məcburi ehtiyatlar. Əlavə ehtiyatlar. Uçot dərəcəsinin dəyişməsi. Açıq bazarda əməliyyatlar. Sərt pul siyasəti. Çevik pul siyasəti. Qiymətli kağızlar. Qiymətli kağızların növləri və onların tədavülü şərtləri. Qiymətli kağızların ilkin və törəmə bazarları. Qiymətli kağızların cari dəyərinin müəyyən edən amillər. Fond birjalarının fəaliyyət mexanizmi. | **Ədəbiyyat** 1. İqtisadi nəzəriyyə. Dərslik. E.Kərimov, B.Osmanov. Bakı, 2010.səh.153-176 H .Əhmədov. Makroiqtisadiyyat. Bakı 2016 2.M.C.Atakişiyev, H.M.Abbasov -Mikro-makroiqtisadiyyat.Dərslik. Bakı-2010 3. H.M.Meybullayev-İqtisadi nəzəriyyə-Bakı-2001 3.Makroiqtisadiyyat -1,2 Transformasiyaiqtisadiyyatı. Dərslik Daşkov və K‖ nəşriyyatı Moskva 2008 4.O.Məmmədli, M.İsmayılov, R.İsmayılov - İqtisadi nəzəriyyə - Dərs vəsaiti. Bakı- 2010 5.S.İbadov İqtisadiyyat- Mikro və makroiqtisadiyyat. Dərs vəsaiti.Bakı-20106.O.Məmmədov,Y.F.Əlifov – İqtisadi nəzəriyyənin əsasları- Dərs vəsaiti Gəncə- 2003 7.E.Kərimov, B.Osmanov –İqtisadi nəzəriyyə Mikro-Makroiqtisadiyyat Bakı-2010<br>**Tapşırıq**<br>**Müasir pul sisteminin mahiyyəti və tipləri.**<br>**Kredit və onun mahiyyəti, funksiyaları və rolu**<br>**, Bank sistemi, bankların növləri Mərkəzi Bankın funksiyaları** |
| **VIII** | 04.11.22 | **Mövzu 8. İnflyasiya və onun aradan qaldırılması yolları.( 2 saat)**<br>Inflyasiya- qiymətlərin səviyyəsinin artması, iqtisa-diyyatda ümumi tarazlığın pozulması deməkdir. Lakin in-flyasiya dövründə bütün əmtəələrin qiymətləri bahalanmır. Başqa sözlə, inflyasiyanın sürətlə artdığı dövrdə bəzi əmtəə-lərin qiymətləri qalxa, bəzilərininki sabit qala, digərləri-ninki isə hətta aşağı düşə bilər. Bunlar tələblə təklif ara-sındakı nisbətin, elastikliyin müxtəlifliyi ilə əlaqədardır<br>Bütövlükdə götürdükdə isə inflyasiyanı qiy-mətlərin fasiləsiz olaraq artması prosesi kimi başa düşmək olar. Deməli, burada həlledici söz "fasiləsiz"indir. Buna görə də qiymətlərin artmasını daimi bir proses kimi qəbul etmək mümkündür.<br>Inflyasiyanın səviyyəsini müəyyən edərkən indeks-lərdən, xüsusilə də qiymət indekslərindən geniş istifadə olu-nur. Bunlardan həyat (yaşayış) səviyyəsi indeksini, topdan-satış qiymətlər (istehsal təyinatlı əmtəələrin) indeksini və ÜMM-in deflyatoru indeksini qeyd etmək olar**Inflyasiyanın aşağıdakı növləri vardır:** 1) Açıq inflyasiya; 2) Sar-sıdıcı inflyasiya; 3) Mötədil (mülayim) inflyasiya; 4) Çaparaq inflyasiya; 5)Hiper inflyasiya; 6) Tarazlaşdırılan inflyasiya; 7) Tarazlaşdırılmayan inflyasiya; 8) Gözlənilən inflyasiya; 9) Gözlənilməyən inflyasiya | **Ədəbiyyat**<br>1. İqtisadi nəzəriyyə. Dərslik. E.Kərimov, B.Osmanov. Bakı, 2010.səh.153-176 H .Əhmədov. Makroiqtisadiyyat. Bakı 2016 2.M.C.Atakişiyev, H.M.Abbasov - Mikro-makroiqtisadiyyat.Dərslik. Bakı-2010 3. H.M.Meybullayev-İqtisadi nəzəriyyə-Bakı-2001 3.Makroiqtisadiyyat -1,2 Transformasiyaiqtisadiyyatı. Dərslik Daşkov və K‖ nəşriyyatı Moskva 2008 4.O.Məmmədli, M.İsmayılov, R.İsmayılov - İqtisadi nəzəriyyə - Dərs vəsaiti. Bakı- 2010 5.S.İbadov İqtisadiyyat- Mikro və makroiqtisadiyyat. Dərs vəsaiti.Bakı-20106.O.Məmmədov,Y.F.Əlifov – İqtisadi nəzəriyyənin əsasları- Dərs vəsaiti Gəncə- 2003 7.E.Kərimov, B.Osmanov –İqtisadi nəzəriyyə Mikro-Makroiqtisadiyyat Bakı-2010<br>**Tapşırıq Tələb və təklifin inflyasiyası.**<br>**Inflyasiyanın sosial-iqtisadi nəticələri.** |
| **IX** | 11.11.22 | **Mövzu 9. Məşğulluq və işsizlik. ( 2 saat)**<br>Məşğulluq anlayışı. Məşğulluq haqqında təlimlər. Iəşğulluğa neoklassik yanaşma. Məşğulluq haqqında | **Ədəbiyyat 1.**H .Əhmədov. Makroiqtisadiyyat. Bakı 2016<br>**2.**S.İbadov. İqtisadiyyat. Dərslik. |

| | | | |
|---|---|---|---|
| | | ...eynsin nəzəriyyəsi. Məşğulluğun monetarist, institusional ...ə marksist izahı. Əmək dairəsi (sferası) və əmək bazarı. İş ...üvvəsi və məşğulluq. Əmək resursları və məşğulluq ...ərəcəsi. Əmək bazarının tənzimlənməsi. İşsizliyin ...ahiyyəti. İşsizliyin səbəbləri və formaları. İşsizliyin ...östəriciləri. Friksion, struktur, instutusional, tsiklik və ...önüllü işsizlik. İşsizliyin tənzimlənməsinin zəruriliyi və ...tiqamətləri. Yeni iqtisadi sistemə keçid dövründə işsizliyin ...üsusiyyətləri. İşsizlik şəraitində əhalinin sosial müdafiəsi ...roblemləri | BDU. Bakı, 2008. 3.Z.Hüseynova. İqtisadi nəzəriyyə. Dərs vəsaiti. Bakı, 2007-ci il.səh.85-104 4.. İqtisadi nəzəriyyə. Dərslik. E.Kərimov, B.Osmanov. Bakı, 2010.səh.146-178<br>- **Tapşırıq**<br>- **İşsizlik və onun yaranma səbəbləri. . İşsizliyin növləri.**<br>- **Azərbaycanda məşğulluq və işsizlik problemləri və onların aradan qaldırılması yolları.** |
| **X** | 18.11.22 | **Mövzu 10. Makroiqtisadi qeyri- sabitlik. İqtisadi tsikllər nəzəriyyəsi.(2 saat)**<br>Cəmiyyətin iqtisadi inkişaf qanunauyğunluqlarını araşdıran iqtisadçılar nəticə etibarı ilə bu qənaətə gəlmişlər ki, uzun tarixi dövrlər üçün inkişaf yüksələn xətt üzrə getsə də heç də bu yüksəliş sabit, tərəddüdsüz olmur.İstənilən ölkənin iqtisadi inkişafının səciyyəvi cəhətlərindən biri də qeyri-sabitlikdir. Qeyri- sabit iqtisadi inkişaf ən sadə mənada tələb və təklifin müxtəlif formada uyğunsuzluğudur.<br>İqtisadi inkişafın qeyri- sabitliyi bir sıra xarici və daxili amillərin qarşılıqlı təsiri altında baş verir.<br>İqtisadi tsikl və onun fazaları | **Ədəbiyyat**<br>1. İqtisadi nəzəriyyə. Dərslik. E.Kərimov, B.Osmanov. Bakı, 2010.səh.153-176 H .Əhmədov. Makroiqtisadiyyat. Bakı 2016 2.M.C.Atakişiyev, H.M.Abbasov - Mikro-makroiqtisadiyyat.Dərslik. Bakı-2010 3. H.M.Meybullayev- İqtisadi nəzəriyyə-Bakı-2001 3.Makroiqtisadiyyat -1,2 Transformasiyaiqtisadiyyatı. Dərslik Daşkov və K‖ nəşriyyatı Moskva 2008 4.O.Məmmədli, M.İsmayılov, R.İsmayılov - İqtisadi nəzəriyyə - Dərs vəsaiti. Bakı- 2010 5.S.İbadov İqtisadiyyat- Mikro və makroiqtisadiyyat. Dərs vəsaiti.Bakı-2010,Strateji yol xəritəsi<br>**Tapşırıq**<br>**İqtisadi tsiklin müəyyən edilməsində iki istiqamət: Yeni klassik və yeni Keynsçi iqtisadi konsepsiyalar** |
| **XI** | 25.11.22 | **Mövzu 11. İqtisadiyyatın dövlət tənzimlənməsi.( 2 saat)**<br>İqtisadiyyatın dövlət tərəfindən idarə olunmasının mahiyyəti. İqtisadi təsisatlar. İqtisadiyyatın dövlət tənzimlənməsinin mahiyyəti və zəruriliyi. Dövlətin iqtisadiyyata müdaxiləsinin hüdudları. İqtisadiyyatın dövlət tənzimlənməsinin tipləri. İqtisadiyyatın tənzimlənməsi haqqında baxışlar və onların təkamülü: kassik, neoklassik, monetar, keynsçi, konservativ, neokonservativ və müasir modellər. Dövlətin iqtisadi tənzimləmə funksiyaları.<br>İqtisadiyyatın dövlət tənzimlənməsinin forma və metodları. İnzibati və iqtisadi tənzimləmə, onların qarşılıqlı əlaqəsi. Dövlət tənzimlənməsinin obyekt və subyektləri. İqtisadiyyatın dövlət tənzimlənməsinin vasitələri və mexanizmi. Mərkəzi, strateji, indikativ planlaşdırma və proqnozlaşdırma.<br>Dövlətin iqtisadi siyasətinin mahiyyəti. Fiskal və monetar iqtisadi siyasət. İqtisadi siyasətin formalaşdırılmasını müəyyən edən amillər və ictimai mühit. Keçid mərhələsində Azərbaycanda iqtisadiyyatın dövlət tənzimlənməsinin xüsusiyyətlə | **Ədəbiyyat**<br>1. İqtisadi nəzəriyyə. Dərslik. E.Kərimov, B.Osmanov. Bakı, 2010.səh.153-176 H .Əhmədov. Makroiqtisadiyyat. Bakı 2016 2.M.C.Atakişiyev, H.M.Abbasov - Mikro-makroiqtisadiyyat.Dərslik. Bakı-2010 3. H.M.Meybullayev- İqtisadi nəzəriyyə-Bakı-2001 3.Makroiqtisadiyyat -1,2 Transformasiyaiqtisadiyyatı. Dərslik Daşkov və K‖ nəşriyyatı Moskva 2008 4.O.Məmmədli, M.İsmayılov, R.İsmayılov - İqtisadi nəzəriyyə -Dərs vəsaiti. Bakı- 2010 5.S.İbadov İqtisadiyyat- Mikro və makroiqtisadiyyat. Dərs vəsaiti.Bakı-2010,Strateji yol xəritəsi<br>**Tapşırıq**<br>**İqtisadiyyatın dövlət tənzimlənməsinin məqsədi. İqtisadiyyatın tənzimlənməsində fiksal siyasətin rolu, Iqtisadiyyatın tənzimlənməsinin Azərbaycan modeli.** |

| | | | |
|---|---|---|---|
| **XII** | 02.12.22 | **Mövzu 12. Dünya iqtisadiyyatının formalaşması və beynəlxalq bazar. ( 2 saat)**<br>Beynəlxalq iqtisadi münasibətlər ayrı-ayrı ölkələrin inkişafına, onların dünya birliyində özlərinə məxsus yer tutmalarına səbəb olur. Bu münasibətlərin məntiqi nəticəsi kimi dünya təsərrüfat sistemi meydana gəlmişdir. Dünya təsərrüfatı mürəkkəb quruluşa malikdir və ölkələrarası istehsal kooperasiyasını, iş qüvvəsinin miqrasiyasını, xarici ticarəti,kapitalın və investisiyaların hərəkətini, elm və texnika sahəsində qarşılıqlı əlaqələri, valyuta-kredit münasi-bətlərini və s. əhatə edir<br>BƏB dedikdə, ayrı-ayrı ölkələrin müəyyən məhsul növlərinin istehsalı sahəsində ixtisaslaşmaları və həmin məhsulları öz aralarında mübadilə etmələri nəzərdə tutulur. BƏB öz növbəsində istehsalın beynəlmiləlləşməsinə səbəb olur.<br>Beynəlxalq Iqtisadi Inteqrasiya (BII) ölkələr və milli təsərrüfatlar arasında dərin və sabit əlaqələrin, əmək bölgü-sünün müxtəlif səviy-yələrdə və formalarda inkişaf etdiril-məsi əsasında onların iqtisadiyyatının iqtisadi-siyasi cəhət-dən birləşməsi Elmi-texniki tərəqqinin təsiri ilə firmadaxili və ölkə-lərarası səviyyədə predmet, detal və texnoloji əmək bölgüləri getdikcə<br>dərinləşir | **Ədəbiyyat**<br>1. İqtisadi nəzəriyyə. Dərslik. E.Kərimov, B.Osmanov. Bakı, 2010.səh.153-176 H .Əhmədov. Makroiqtisadiyyat. Bakı 2016 2.M.C.Atakişiyev, H.M.Abbasov - Mikro-makroiqtisadiyyat.Dərslik. Bakı-2010 3. H.M.Meybullayev-İqtisadi nəzəriyyə-Bakı-2001 3.Makroiqtisadiyyat -1,2 Transformasiyaiqtisadiyyatı. Dərslik Daşkov və K‖ nəşriyyatı Moskva 2008 4.O.Məmmədli, M.İsmayılov, R.İsmayılov - İqtisadi nəzəriyyə - Dərs vəsaiti. Bakı- 2010 5.S.İbadov İqtisadiyyat- Mikro və makroiqtisadiyyat. Dərs vəsaiti.Bakı-2010,Strateji yol xəritəsi<br>**Tapşırıq**<br>**Açıq iqtisadiyyatın səciyyəvi cəhətləri aşağıdakılardır:**<br>- Ölkə iqtisadiyyatının dünya təsərrüfat münasi-bətlərinə bağlılığı<br>- Əmtəələrin, kapitalın və iş qüvvəsinin ölkələr-arası hərəkətində məhdudiyyətlərin azaldılması, yaxud da tamamilə aradan qaldırılması;<br>**-Beynəlxalq miqyasda kapitalın hərəkəti, onun formaları və tənzimlənməsi.** |
| **XIII** | 09.12.22 | **Mövzu 13. Dünya ticarəti və tədiyyə balansı.( 2 saat)**<br>Müasir dövrdə ölkələrin dünya ticarətində fəal iştirak etmələri bir sırasəbəblərlə əlaqədardır. Belə ki, dünya tica-rəti ölkədə mövcud olan iqtisadi ehtiyatlardan, elm və texni-kanın ən yeni nailiyyətlərindən istifadə olunmasına, iqtisa-diyyatda çox qısa müddətdə struktur dəyişiklikləri aparıl-masına, əhalinin tələbatının daha yaxşı ödənilməsinə imkan verir. Bununla əlaqədar olaraq beynəlxalq ticarət nəzəriyyələrinin öyrənilməsi böyük maraq doğurur.<br>Müqayisəli üstünlük nəzəriyyəsinə görə ticarət əla-qələrini zəruri edən şərtlərdən biri də rayonlar arasında is-tehsal şərtləri ilə bağlı meydana çıxan fərqlərdir.Xekşer – Olinin beynəlxalq ticarət modelinə uyğun olaraq, bu prosesdə istehsal amillərinin qiymətləri tarazla-şır. Tarazlaşma mexa-nizminin mahiyyəti belədir: Ölkədə hansı istehsal amilləri (əmək haqqı, borc faizi, renta və i.a.) boldursa, onların qiyməti aşağı, hansılar azlıq edirsə, onların qiyməti baha olur. Müqayisəli üstünlük nəzəriyyəsi amerika iqtisadçısı Maykl Porterin əsərlərində daha da inkişaf etdirilmişdir. M.Porter, sənayecə inkişaf etmiş 8ölkənin iqtisadiyyatının 100-ə yaxın sahəsini əhatə edən geniş statistik materialları təhlil etmək | **Ədəbiyyat** 1. İqtisadi nəzəriyyə. Dərslik. E.Kərimov, B.Osmanov. Bakı, 2010.səh.153-176 H .Əhmədov. Makroiqtisadiyyat. Bakı 2016 2.M.C.Atakişiyev, H.M.Abbasov -Mikro-makroiqtisadiyyat.Dərslik. Bakı-2010 3. H.M.Meybullayev-İqtisadi nəzəriyyə-Bakı-2001 3.Makroiqtisadiyyat -1,2 Transformasiyaiqtisadiyyatı. Dərslik Daşkov və K‖ nəşriyyatı Moskva 2008 4.O.Məmmədli, M.İsmayılov, R.İsmayılov - İqtisadi nəzəriyyə - Dərs vəsaiti. Bakı- 2010 5.S.İbadov İqtisadiyyat- Mikro və makroiqtisadiyyat. Dərs vəsaiti.Bakı-2010,Strateji yol xəritəsi<br>**Tapşırıq**<br>**Dünya əmtəə bazarında qiymətlərin əmələ gəlməsi.** |

| | | | |
|---|---|---|---|
| **XIV** | 16.12.22 | **Mövzu 14. Beynəlxalq valyuta münasibətləri.( 2 saat)**<br>Milli valyuta sistemi ölkənin pul sisteminin ayrılmaz tərkib hissəsidir.<br>Lakin o, təkcə daxili pul tədavülünü deyil, həm də beynəlxalq hesablaşmalarla əlaqədar meydana çıxan münasibətləri əhatə edir. Beynəlxalq iqtisadi münasibətlər inkişaf etdikcə milli valyuta sis-temlərinin bazasında dünya valyuta sistemi əmələ gəlmişdir<br>Beynəlxalq valyuta bazarının başlıca iqtisadi vahid-ləri xaricə mal göndərənlər, xaricdən mal gətirənlər və dolayı aktivlərin sahib-ləridir. Dünya valyuta sistemi öz inkişafının ilk iki mərhə-ləsində qızıl (qızıl sikkə) standartına əsaslanmışdır<br>Faiz dərəcəsinin dəyişməsi xeyli dərəcədə dövlətin pul-kredit siyasətindən və ölkənin mərkəzi bankının valyuta məzənnəsinin tən-zimlənməsi sahəsində necə fəaliyyət göstər-məsindən asılıdır. | **Ədəbiyyat**<br>1. İqtisadi nəzəriyyə. Dərslik. E.Kərimov, B.Osmanov. Bakı, 2010.səh.153-176 H .Əhmədov. Makroiqtisadiyyat. Bakı 2016 2.M.C.Atakişiyev, H.M.Abbasov - Mikro-makroiqtisadiyyat.Dərslik. Bakı-2010 3. H.M.Meybullayev-İqtisadi nəzəriyyə-Bakı-2001 3.Makroiqtisadiyyat -1,2 Transformasiyaiqtisadiyyatı. Dərslik Daşkov və K‖ nəşriyyatı Moskva 2008 4.O.Məmmədli, M.İsmayılov, R.İsmayılov - İqtisadi nəzəriyyə - Dərs vəsaiti. Bakı- 2010 5.S.İbadov İqtisadiyyat- Mikro və makroiqtisadiyyat. Dərs vəsaiti.Bakı-2010,Strateji yol xəritəsi<br>**Tapşırıq**<br>**valyuta məzənnələri, demək olar ki, bütün beynəlxalq iqtisadi münasibətlər sistemində "əsəb gərginliyi" yaradan nöqtədi**r. |
| **XV** | 23.12.22 | **Mövzu 15. Qlobal iqtisadi problemlər.( 2 saat)**<br>Dövlətlər arası qarşılıqlı əlaqə və asılılıqların artdığı müasir dövrdə iqtisadi və sosial tərəqqi xeyli dərəcədə qlobal problemlərin həllindən asılıdır. Yaşadığımız indiki əsrdə bu problemlərin həll edilməsinin bəşəriyyət üçün xüsusilə böyük əhəmiyyəti vardır. Qlobal problemlərə nüvə müharibəsinin qarşısının alınması, inkişaf etməkdə olan ölkələrin iqtisadi geriliklərinin aradan qaldırılması; ətraf mühitin mühafizəsi; ərzaq, xammal,energetika və demoq-rafiya problemləri, kosmosun və dünya okeanı sərvətlərin-dən dinc məqsədlər üçün istifadə olunması, təhlükəli xəstəliklərin kökünün kəsilməsi və s. daxildir.<br>qlobal problemlər müasir dünyada özünün miqyasına və əhəmiyyətinə görə fərqlənən, iqtisadi inkişaf səviyyəsindən, coğrafi mövqeyindən asılı olmayaraq bütün ölkələrin xalqlarının həyati mənafeləri ilə əlaqədar olan, dünya birliyi ölkələrinin ümumi səyləri ilə həll edilə bilən xüsusi növ sosial hadisə və proseslərdən ibarətdir.<br>Qlobal problemləri xarakterinə və həll olunması üsullarına görə əsas etibarilə iki qrupa bölmək olar | **Ədəbiyyat**<br>1. İqtisadi nəzəriyyə. Dərslik. E.Kərimov, B.Osmanov. Bakı, 2010.səh.153-176 H .Əhmədov. Makroiqtisadiyyat. Bakı 2016 2.M.C.Atakişiyev, H.M.Abbasov - Mikro-makroiqtisadiyyat.Dərslik. Bakı-2010 3. H.M.Meybullayev-İqtisadi nəzəriyyə-Bakı-2001 3.Makroiqtisadiyyat -1,2 Transformasiyaiqtisadiyyatı. Dərslik Daşkov və K‖ nəşriyyatı Moskva 2008 4.O.Məmmədli, M.İsmayılov, R.İsmayılov - İqtisadi nəzəriyyə - Dərs vəsaiti. Bakı- 2010 5.S.İbadov İqtisadiyyat- Mikro və makroiqtisadiyyat. Dərs vəsaiti.Bakı-2010,Strateji yol xəritəsi<br>- **Tapşırıq**<br>**Qlobal problemlər içərisində ətraf mühitin mühafizəsi əhəmiyyət və təhlili**<br>- |

**SEMİNAR – 30 SAAT**

| Həftə | Tarix | Mövzular | Dərs saatı |
|---|---|---|---|
| 1. | **20.09.2022** | **Ümumi tələb və təklif. Makroiqtisadi tarazlıq** | **2** |
| 2. | **27.09.2022** | **Təkrar istehsal.** | **2** |
| 3. | **04.10.2022** | **İqtisadi artım və səmərəlilik** | **2** |
| 4. | **11.10.2022** | **Ümumi milli məhsul və milli gəlir.** | **2** |

| | | | |
|---|---|---|---|
| 5. | **18.10.2022** | **Gəlirlərin formalaşması və bölgüsü.** | **2** |
| 6. | **25.10.2022** | **Büdcə və vergilər .** | **2** |
| 7. | **01.11.2022** | **Kredit sistemi və banklar.** | **2** |
| 8. | **08.11.2022** | **İnflyasiya və onun aradan qaldırılması yolları.** | **2** |
| 9 | **15.11.2022** | **Məşğulluq və işsizlik.** | **2** |
| 10 | **22.11.2022** | **Makroiqtisadi qeyri- sabitlik. İqtisadi tsikllər nəzəriyyəsi.** | **2** |
| 11 | **29.12.2022** | **İqtisadiyyatın dövlət tənzimlənməsi.** | **2** |
| 12 | **06.12.2022** | **Dünya iqtisadiyyatının formalaşması və beynəlxalq bazar.** | **2** |
| 13 | **13.12.2022** | **Dünya ticarəti və tədiyyə balansı.** | **2** |
| 14 | **20.12.2022** | **Beynəlxalq valyuta münasibətləri.** | **2** |
| 15 | **27.12.2022** | **Qlobal iqtisadi problemlər.** | **2** |
| yekun | | Cəmi | **30** |

**Fənn müəllimi:** **müəllim Ə.Ş.Zamanov.**

**Kafedra müdiri:** **dosent Məmmədov.H.Ə.**